# DÖVLƏT DƏSTƏYİNDƏN QAYNAQLANAN UĞURLAR





**Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında qeyd edildiyi kimi, respublikanın bölgələri sosial-iqtisadi inkişaf yolunda uğurlu addımlar atmışlar. Neftçala rayonunun sakinləri də quruculuq işlərində əllərindən gələni əsirgəmir, yaşayış məntəqələrinin iqtisadi və sosial tərəqqisində fəallıq göstərirlər.**

**Rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev** rayonun sosial-iqtisadi inkişafının ilin birinci rübündəki yekunlarına həsr olunmuş yığıncaqda iqtisadi və sosial quruculuq sahəsində həyata keirilən tədbirlər haqqında geniş məlumat verərək bildirdi ki, Nazirlər Kabinetinin iclasının materialları rayonda canlı və işgüzar şəraitdə müzakirə olunmuş, görülən tədbirlərə və onların nəticələrinə bir daha açıq gözlə qiymət verilmiş, gələcək vəzifələr müəyyənləşdirilmişdir.

Rayon rəhbəri göstərdi ki, həmişə olduğu kimi, bu ilin əvvəlindən Neftçala rayonunun sosial-iqtisadi və mədəni həyatında uğurlu nəticələr əldə olunmuş, əhalinin rifahının yüksəldilməsi sahəsində səmərəli tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində bütün sahələrdə inkişaf tempi daha yüksək olmuş, əldə olunan istehsal göstəriciləri və gəlirlər əvvəlki ildəki səviyyəni xeyli ötüb keçmişdir. Cari ilin birinci rübündə əsas makroiqtisadi göstəricisi olan ümumi məhsul istehsalının həcmi çoxalmışdır. Müxtəlif xidmətlərin göstərilməsində, tikinti-quraşdırma işlərində də artım müşahidə olunmuşdur ki, bunlar rayon sakinlərinin yüksək əmək fəallığına, ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün səylərini artırdıqlarına dəlalət edir. Prezident İlham Əliyevin ötən il rayona səfər etməsi, insanların həyat şəraiti, quruculuq işləri ilə yaxından tanış olması, onun dəyərli məsləhətləri vətəndaşların ruh yüksəkliyini qat-qat artırmışdır.

2015-ci ilin birinci rübündə rayonda ümumi məhsul istehsalının həcmi ötən ilin müvafiq dövründəkinə nisbətən 0,6 faiz artaraq 43,6 milyon manat olmuşdur ki, bu da əvvəlki ildəkindən 260 min manat artıqdır. 12 sənaye müəssisəsində 5 milyon manatlıq məhsul istehsal olunmuşdur.

İlin birinci rübündə təmir-tikinti təşkilatları və xidmətləri tərəfindən yerinə yetirilmiş işlərin həcmi 10,3 milyon manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövründəkinə nisbətən xeyli artıqdır. Heydər Əliyev prospektində, parklarda, küçələrdə xeyli abadlıq işləri aparılmış, ərazilərdə 1130 ədəd ağac və gül əkilmişdir. Şəhərdə sakinlərin ekoloji cəhətdən təmiz içməli suya tələbatını ödəmək üçün su xətləri çəkilmiş, nasosxanalar və su anbarları işlək vəziyyətə salınmış, kanalizasiya xidməti göstərilmiş, xeyli sanitar təmizliyi tədbirləri həyata keçirilmişdir. Prezidentin ehtiyat fondundan ayrılmış vəsaitlər hesabına yeni asfalt yolların çəkilməsi rayon əhalisi tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılanmışdır. Salyan-Neftçala şosesində təmir işləri aparılmışdır. Birinci rübdə həmin mühüm sahəyə 131 min manat vəsait sərf olunmuşdur.

Kənd təsərrüfatı sahəsində çalışanlar arasında ruh yüksəkliyi hökm sürür. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu xeyli artaraq 11 milyon 240 min manat olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında fermerlərə güzəştli şərtlərlə mineral gübrələr satılmış, pul yardımı göstərilmişdir. Bu tədbirlərin faydası böyük olmuşdur. Hazırda 43756 hektar taxıl zəmilərinə aqrotexniki qaydalar əsasında qulluq edilir.

Heyvandarlıqda ciddi nailiyyətlər qazanılmışdır, ötən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 338 baş, davarların sayı 781 baş çoxalmış, 2472 ton ət, 19,4 ton süd, milyondan çox yumurta istehsal olunmuşdur.

Əkinlərin məhsuldarlığını artırmaq məqsədilə suvarma sistemlərinin sahmana salınmasına diqqət artırılmışdır. Kür çayından Xol zonasına 25 kilometr uzunluqda magistral suvarma kanalının çəkilməsi sürətlə davam etdirilmişdir. 156,4 kilometr suvarma kanalları, 45,1 kilometr kollektor-dren sistemi lildən təmizlənmiş, 77 hidrotexniki qurğu və nasos aqreqatları təmir edilmişdir.

Özəl bölmənin inkişaf etdirilməsi rayon rəhbərliyinin diqqət mərkəzində durmuş və bunun üçün münbit şərait təmin olunmuşdur. Ümumi məhsul istehsalında qeyri-dövlət bölməsinin payı ötən ilin müvafiq dövründəkinə nisbətən 7 faiz artaraq 91 faizə çatmışdır. Sahibkarlığın inkişafına maliyyə yardımı göstərmək məqsədilə fiziki və hüquqi şəxslərə kreditlər verilməsi davam etdirilmişdir. “Vahid pəncərə” sistemi uğurla tətbiq olunur, yeni sahibkarlıq subyektləri yaradılır. Son 3 ay ərzində rayonda 189 fiziki şəxs işə başlamışdır. Bunun nəticəsində 195 daimi iş yeri yaradılmışdır.

Xidmət sahələrinin inkişaf etdirilməsinə və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xüsusi fikir verilmişdir. Rayon əhalisinin rabitə sistemlərindən istifadəsini yaxşılaşdırmaqdan ötrü xeyli iş görülmüş, əhaliyə ötən ildəkindən 5,9 faiz çox xidmət göstərilmişdir. Nəqliyyatda yük daşınması 4 faiz, sərnişin daşınması 4,4 faiz artmışdır. İlin əvvəlindən bəri əhaliyə 33,9 milyon manatlıq istehlak malları satılmışdır. Əhaliyə və təşkilatlara 35 milyon kilovatsaat elektrik enerjisi, 5,5 milyon kubmetr təbii qaz verilmişdir.

Dövlətin və onun başçısının apardığı siyasətə uyğun vətəndaşların sosial şəraitinin yaxşılaşdırılması rayon rəhbərliyinin əsas fəaliyyət sahəsidir, əldə edilən uğurların əsas meyarı da məhz bu sahədir. Müşahidələr göstərir ki, rayon əhalisi əsasən yaxşı yaşayır, nominal pul gəlirləri 14,4 milyon manat olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz artmışdır. Adambaşına düşən pul gəlirləri isə 2 faiz çoxalaraq 166 manata çatmışdır. Hər bir işçinin orta aylıq əmək haqqı 277 manat təşkil edir ki, bu, keçən ildəkindən 2,5 faiz çoxdur. Pensiyaların və müavinətlərin ödənilməsində problem qalmamışdır. Aztəminatlı ailələrə sosial yardımların verilməsi tam nizama düşmüşdür. Hazırda ünvanlı sosial yardım alan ailələrin sayı 894-ə çatmışdır, ilin birinci rübündə rayonda 13565 nəfər pensiyaçı və müavinət alan olmuş, şəhid ailələri, əlillər, qocalar və tənha insanlar hər cür qayğı ilə əhatə olunmuşlar. 143 kimsəsiz, ahıl və əlil şəxslərə sosial-məişət xidməti göstərilmişdir.

Təhsil, səhiyyə və mədəni quruculuq sahələrində xeyli iş görülmüşdür. Hazırda rayonda 51 ümumtəhsil məktəbi, 16 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərir, məktəblərdə 15000 nəfər təhsil alır, onların təlim-tərbiyəsi ilə 1545 müəllim məşğul olur. Qırmızıkənd, Həsənabad, Aşağı Surra, Mirqurbanlı, Kürkənd kənd məktəblərinin müəllim və şagird kollektivləri xeyli uğura imza atmışlar.

Səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir. Rayonda 160 çarpayılıq 2 xəstəxana, 15 həkim məntəqəsi, 4 tibb ambulatoriyası fəaliyyət göstərir. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş pulsuz müayinələrdən 52 yaşayış məntəqəsində yaşayan 41 min nəfər keçmişdir. Müayinələr nəticəsində 2993 nəfər ambulator, 31 nəfər stasionar müalicəyə cəlb edilmişdir.

Beləliklə, rayonda qarşıya qoyulmuş yeni vəzifələrin layiqincə yerinə yetirilməsi uğrunda mübarizə cari ilin ilk günlərindən daha geniş vüsət almışdır və göstəricilər onu deməyə əsas verir ki, neftçalalılar həmişə olduğu kimi, bundan sonra daha böyük əzmkarlıq nümunəsi göstərəcək, Vətəni sosial-iqtisadi quruculuqda daha böyük nailiyyətlərlə sevindirəcəklər.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**